# Mamuka Baxtadze Belarusya baş nazirinin müavini ilə görüşüb

Yazan Esmira Məmmədova
04.12.18 13:45 -



Bu barədə hökümət administrasiyası məlumat yayıb.

Belarusya Baş nazirinin müavini Mixail Rusy baş nazir Mamuka Baxtadzeni Gürcüstandakı yeni prezident seçkilərinin qələbəsi münasibətilə təbrik edib.

Məlumata əsasən, Görüşdə tərəflər, iki ölkə arasındakı iqtisadi əlaqələri müzakirə edib: Gürcüstan və Belarusya arasında ikitərəfli əlaqələr ildən-ilə artır. Xüsusilə, ölkələr arasındakı əmtəə dövriyyəsinin həm idxal, istərsə də ixrac baxımından artması vurğulanıb. Görüşdə Belarus-Gürcüstan birgə müəssisələrinin yaradılmasına və bu sahədə dövlət yardımının

vacibliyinə də diqqət yetirilib.